**Nizami TAĞISOY**

*Filologiya üzrə elmlər doktoru*
Bakı Slavyan Universiteti
nizami.mamedov@mail.ru

# ÇİNGİZ AYTMATOVUN QADIN OBRAZLARI ƏNƏNƏ VƏ NOVATORLUQ PRİZMASINDA

Qırğız ədəbiyyatında qadın mövzusu folklor və eposdan təşəkkül tapıb ("Manas" qəhrəmanlıq dastanında, sevgi-məhəbbət dastanı "Canıl Mırza" və s.) dövrümüzə qədər mürəkkəb və ziqzaqlı bir yol keçmişdir. Buna baxmayaraq, mövzunun yazılı ədəbiyyatda müxtəlif tərəfləri böyük qırğız yazıçısı Çingiz Aytmatov tərəfindən xüsusi olaraq böyük vüsətlə inkişaf etdirilmişdir. Onun istər povestlərinin, istərsə də romanlarının əksəriyyətinin episentrində dayanan bir-birindən fərqli, bir-birindən orijinal olan da məhz qadın obrazlarıdır.

"Ana tarla", "Əlvida, Gülsarı", "Cəmilə", "Üz-üzə", "Qırmızı yaylıqlı qovağım mənim" və digər əsərlərində müəllif yer üzündə həyatın ağıllı və ədalətli qurulması ilə bağlı fikir və mülahizələr insanda xeyirxahlığı tərbiyə etmək üçün, müasir insanın taleyi, onun indisi və gələcəyi haqqında düşünmək Ç.Aytmatovu daim narahat edirdi [1, s.177]. Adlarını çəkdiyimiz əsərlərdə Ç.Aytmatov insanların psixoloji, ruhi halının müxtəlif tərəflərinə müraciət etməklə, onları xoşbəxtliyə, xeyirxahlığa, sevgiyə aparan yolların özünəməxsus rənglərini göstərməyə müvəffəq olur.

Təsadüfi deyildir ki, 50-ci illərin sonları 60-cı illərin əvvəllərində yaradılmış bu əsərlər tezliklə ədəbi tənqidin nəzər-diqqətini cəlb etmiş, onlar haqqında fundamental məqalələr, monoqrafik araşdırmalar ortaya çıxmışdır. Bu müstəvidə adlarını çəkdiyimiz əsərlərin hamısından daha çox "Cəmilə" povesti diqqət mərkəzində olmuşdur. Özü də belə yanaşma nəinki qırğız, həmçinin ümumittifaq miqyasında, dairəsində gedirdi, əsərə həm də Avropa ədəbi tənqidində maraq kifayət qədər güclü idi. Çingiz Aytmatova dünya şöhrəti gətirən "Cəmilə" povesti fransız yazıçısı Lui Araqonun yüksək rəyinə görə, əsərin təhkiyəsində yer alan hadisələr xoşbəxt təbiətin təntənəsinin təcəssümü kimi ortadadır. Maraqlıdır ki, Ç.Aytmatovun

yaradıcılıq evolyusiyası da məhz adlarını çəkdiyimiz povestlərə görə getmişdir. Biz bu əsərlərin məzmunu ilə tanış olduqda, Ç.Aytmatovun məharətinin yazıçılıq və novatorluğunun müxtəlif tərəflərini görür, onun özünəməxsus lirik, etirafedici nəsrinin səciyyəvi naxışlarını ortaya çıxara bilirik. Ç.Aytmatovun povestlərində ("Üz-üzə" və "Cəmilə") təbiətin, qəhrəmanların psixoloji halının və gedən hadisələrin bir-biri ilə sıx əlaqələri mövcuddur. Ç.Aytmatovun ilk povestlərində insanın özünə inamı, ideal mövzusu, gerçəkliyi dəyişə biləcək insan axtarışı diqqəti cəlb edir. Burada öz ideallarına sadiq olanlar həyatda qalib gələ bilirlər. "Üz-üzə" povestində olduğu kimi "Cəmilə"də də müharibə mövzusu fonunda həm də Cəmilənin Daniyara sevgi tarixçəsi öz əksini tapır. Bu, aulda mövcud olan adət-ənənələrə baxmadan ortaya çıxır. Maraqlı burasıdır ki, Ç.Aytmatovun əsərlərinə isti münasibət bəlkə üstün şəkildə Qırğızıstandan kənarda daha çox özünü nümayiş etdirirdi. Buna görə də qırğız qadınının kim olduğunu qəbul etmək üçün onu Ç.Aytmatovun gözü ilə yazıçının sosial-estetik qavrayışı ilə dərk etməyə ehtiyac vardı.

Ç.Aytmatovun qeyri-ordinar yazıçı kimi sənətkarlıq məharəti ondan ibarətdir ki, o, qırğız qadınının obrazını feodal-patriarxal adət-ənənədən azad, vətəndaşlıq şüurunun oyanması kontekstində dərk etməklə, həm də bu günümüzdən çox-çox uzaqlarda qalmış qədim dövrü, bütövlüyü, dünyanın tamlığı və yüksək harmoniya xüsusiyyətlərini qoruyub saxlamaqla [2, s.55] oxuculara qaytarır. Yazıçı "qadın mövzusu"nun Şərq ənənələrinə daha çox söykəndiyi halda, qadın qəhrəmanlarını yetişdirən şərq-qırğız mənbəyinə tənqidçilər diqqət yetirməyi məqbul hesab etməmişdilər. Bununla belə qeyd olunmalıdır ki, qırğız qadının taleyi mövzusuna müraciət heç də yeni dövrdə meydana gəlməmişdir. Folklor, epos və akın yaradıcılığında da (Toktoqul Satılqanov, Toqolok Moldo və başqaları) xüsusən kəndli qadının şikayət-ağlayışlarında da məsələ yetərincə davamlı şəkildə əksini tapmışdı. Ç.Aytmatov Toqolok Moldonun koşoklarında qırğız qadının poetik obrazlarını ustalıqla yaratmasını və onların milli ənənələr səviyyəsində ortaya qoyulduğunu qeyd etmək zəruridir. Bundan başqa qırğız qadının obrazı epik xalq təhkiyələrində də yetərincə əzəmətli yaradılmış, qırğız qadını məğrur təsvir edilmişdir. XIX əsrdə yaradılmış bu tipli nümunələrdə qırğız qadının yazılmamış qanunlara adət-ənənələrə göz qırpmadan tabe olub, öz





taleyini maddi baxımdan puç etməsi (yəni onun sevmədiyi insana ərə verilməsi və s.) kimi hallar söz, fikir sahiblərini daim məşğul etmişdi.

Bütün bunları sadalamaqda məqsədimiz budur ki, qırğız qadının taleyinə retrospektiv baxış zamanı məsələnin nəinki qırğızlarda, həm də qoca Şərqdə, türk dünyasında zəngin ənənələrə söykəndiyini nəzərə çarpdıraq. Ç.Aytmatovun əsərlərində məsələni nəzərdən keçirdikdə isə problem onunla səciyyəvidir ki, yazıçı burada heç də sırf şəkildə öz sələflərinin yolu ilə getmir, hətta rus, Avropa, dünya ədəbiyyatında yaradılmış – keçilmiş izlə getməyi də məqbul saymayıb, özünün fərdi qırğız qadınları obrazı qalereyasını yaradır. Və belə olduğu halda, Ç.Aytmatovun milli qadın qəhrəmanları digər yazıçıların (məsələn, M.Qorki, M.Bulqakov, M.Şoloxov, K.Fedin və başqalarının) obrazları ilə müqayisədə həm də yetərincə öz orijinallığı ilə diqqəti cəlb edir.

Məsələnin digər bir cəhəti onunla simptomatikdir ki, Ç.Aytmatovun qadın qəhrəmanlarının əksəriyyəti auldan çıxmışdırlar. Məsələn, Seydə çoban qızı, Cəmilə ilxıçı, Aysel dağ yaxalarında yerləşən auldan, Tolqonay-taxılçı qızıdır. Onların yaşadığı, ömür sürdüyü mühit əsasən kənd yeri olmaqla, böyük-kiçiyin yeri bilinən, xalq adət və ənənələrinə sadiq qalıb ünsiyyətlərini tənzimləyən, davranış normalarına hörmətlə yanaşılan məkandır. Onlardan hər birinin həyat tərzi öz spesifik tərəfləri ilə seçilmiş bir şəraitdə keçsə də, həyatlarının sonrakı dövrü valideyn evindən kənardadır. Buna görə də onlar ərə getdikdən sonra hər birinin həyatı yetərincə dramatikliyi ilə fərqlənir. Eyni zamanda onların ata evində keçirdikləri ömür payı nə qədər qısadırsa, oradan kənarda keçirdikləri həyat uzun və cansıxıcıdır.

Ç.Aytmatovun qadın obrazları yaratmaq ustalığı ondadır ki, o, onların həyatının müxtəlif tərəflərinə məharətli sənətkar rakursundan baxmağı bacarır. Seydənin ailə həyatına müəllif öz ölçüləri ilə yanaşır. Seydə İsmayılla birlikdə min bir əzab-əziyyətlə tikib qurtardıqları ev, gələcək təsərrüfat planları ilə bağlı valideynlərini dəvət edib onların xoşbəxtliklərinə şərik olmaları, onlar üçün hədiyyə tədarükü görmələri kimi məqamlar öz əksini tapır. Bununla belə müharibənin başlaması onun əri İsmayılın da müharibəyə yola salınması ilə göz önünə gəlir. Seydə ata evində öz hisslərini azad ifadə etsə

də, indi ər evində, üstəgəl ərinin yoxluğuna, vidalaşıb evdən çıxan anında, o, İsmayılla görüşməyə ürək etmir. Axı aul əhli təzə gəlinin əri ilə vidalaşmasına başqa cürə baxa bilərdi.

Seydənin utanıb çəkinməsi, əri ilə vidalaşmağa ürək etməməsi rus, Avropa mühitində gerilik əlaməti kimi qəbul edilə bilərsə, qırğız, türk, Şərq mühitində bu fərqli mənəvi-əxlaqi düşüncə etnik-milli mədəniyyət aktı kimi qəbul edilməlidir. Çünki türk etnik-milli düşüncəsində gəlinin ər evində ərin valideynləri, böyük qardaşı ilə münasibətləri bəzi türk xalqlarında hələ də pərdəli, ədəb-ərkanlı şəkildə qorunub davam etdirilməkdədir (uzağa getməyək, bu sətirlərin müəllifi kimi biz 2018-ci ilin iyunun ikinci ongünlüyünün əvvəllərində Aşqabadda olub türkmənlərlə adət-ənənələrlə bağlı söhbət edərkən, türkmən xanımlarından biri bacarıqlı tədqiqatçı Maral Annaqulıyeva bildirdi ki, türkmən ailələrində indi də gəlin nə qaynatası, nə də ərin böyük qardaşı ilə danışıb, onunla fikir mübadiləsi aparmır. Belə adət-ənənə, heç şübhəsiz ki, qırğız ailələrində də mövcud olmuşdur). Buna görə də o, vidalaşma zamanı özündən asılı olmadan ərinə əlini versə də, özünü itirir və ağladığını göstərməkdən utanıb, əri ilə beləcə də vidalaşır. Lakin ailə tərbiyəsi bəzən insana öz ürəyinin hissinin səsinə qulaq asmağı da ortaya qoyur. Seydə başa düşür ki, vida zamanı o, gərək utanc hissini kənara qoyub, böyüklərdən çəkinməyib, ərini qucaqlayaydı, bəlkə lap bağrına basıb öpəydi də. Buna görə də o, özünü bərk-bərk məzəmmət eləyir. O düşünür ki, bəlkə onlar axrıncı dəfəydi ki, bir-birini görürdülər. Axı İsmayıl müharibəyə gedirdi. O da digər çoxsaylı müharibəyə gedib qayıda bilməyənlərdən biri ola, ölə, yaxud itkin düşə bilərdi.

Lakin az keçmir ki, İsmayıl bir gecə evə qayıdır. Seydə onun qayıtma səbəbləri ilə bağlı müxtəlif versiyalar, fikirlər irəli sürür. O, bəziləri kimi İsmayılın əlil olub qayıtdığını düşünür. Düşündüyü variantlardan heç biri uyğun gəlmir. Deme, İsmayıl müharibədən qorxub qaçıb. Belə olduğu halda Seydənin ona münasibəti dəyişir və İsmayılın müharibədən qaçması Seydənin düşüncəsini, ona bağlılığını alt-üst edir. Hətta İsmayılın belə ləyaqətsiz hərəkəti ilə bağlı əməliyyat müvəkkili onu sorğu-suala tutanda o, "heç nə bilmirəm" deyə susur, hətta Mirzəgül onun qamçı ilə çiyinlərinə döyəndə də dişlərini ağrıdan bir-birinə sıxmaqla, utanc hissindən dinmir. Belə bir vəziyyətdə Seydənin ərinə olan sevgi hissi, İsmayıla olan münasibəti





nifrətə, ona qarşı üsyan etməyə gətirib çıxarır. İsmayıl Seydənin gözündə uçuruma yuvarlanır. O, Seydənin düşüncəsində İsmayıl elə bir uçuruma yuvarlanır ki, artıq onu bağışlamaq, ona rəhmi gəlmək də əbəsdir, mümkün deyildir.

Məsələ bununla da bitmir. Üç körpə uşaq anası və yalnız bir inəyi olan Totoyun əri Baydalının cəbhədən qara məktubu gəlir. Onların ümid yeri olan bir inək oğurlanır. İnsanlar panikadadırlar. İnsanlar Baydalının ailəsinə kimin sataşması haqqında düşünürlər. Hamının içində hiddət hissi kükrəyir. Hərə bacardığından bu ailəyə kömək eləmək əvəzinə, (məsələn, Mirzəgül mümkün olan qədər cəbhəçi ailələrinə, o cümlədən Totoya da kömək edirdi) kimsənin ona sataşması qırğızlar tərəfindən qəbul edilmir. İnsanlar Totoyun inəyinin axtarışına çıxırlar. Seydənin isə birdən ağlına gəlir ki, bəs onlar bu zaman aulun yaxınlığında mağarada gizlənmiş İsmayılı görsələr nə edərlər? Bu zaman orada vəziyyət necə ola bilər? Axtarışlar nəticə vermir. Totoyun inəyi tapılmır. Gecə İsmayıl pəncərəni döyür, Seydə tez qapını açıb onu içəri buraxır. İsmayıl içəri daxil olarkən əlindən bir torba düşür, içindəki isə ət imiş. Bunu görən Seydənin içindən qara bir fikir keçir. Onun boğazı qururyr. Bu, Seydənin özü, ailəsi, bütün yaxınları, qohum-əqrəbası üçün böyük biabırçılığa bərabər olur. Vəziyyəti belə görən Seydə İsmayıla "Belə etməkdənsə, sən öz danamızı kəsərdin", – deyir. Bütün bunlar azmış kimi İsamayıl cəbhədən qaçmağı ilə fəxr edir və deyir ki, orada, dünyanın o başında qalıb nə edəcəkdim. Bəs görəsən, cəbhədə döyüşdən qaçan İsmayıl doğma el-obaya necə xidmət etməyi düşünürmüş. Onun necə vətənpərvər olmasını, xalqına xidmət etməsini aşağıdakı fikirləri daha yaxşı təsdiqləyir. Kimin nə borcuna qalıb, oğurluqla, qarətlə məşğul olacam. Ordudan qaçmamışam ki, burada it kimi gəbərib öləm. İsmayılın mənəvi baxımdan şikəstliyi Seydənin içində təlatüm yaradır. Rus tədqiqatçısı P.Qlinkinin təbirincə desək, "Seydə ordudan qaçmağa qarşı çıxış etməklə, sosial şəxsiyyət, vətəndaş kimi bərkiyir [3, s.17]. Elə buna görə də qırğız qadını mənəvi təmizlik baxımından daha yüksəkdə dayanır. Axı belə olduğu halda o, oğrunu sevə bilməz. Çünki oğrunu sevmək onun özünün də mənəvi aşağılanması ola bilərdi. Çingiz Aytmatov əsərdə Seydənin timsalında xalq əxlaqının qabardılmasını ön plana çəkir. Qeyd edək ki, Aytmatovun digər əsəri "Cəmilə" povesti də öz mükəmməlliyi ilə ona görə

seçilir ki, burada müəllifin məharəti nəinki psixoloji baxımdan maraqlı və inandırıcı obrazların yaradılması ilə bağlıdır, həm də mənəvi kolliziyaların xalqın həyatında gedən ictimai dəyişikliklərlə əlaqəli olduğu diqqət mərkəzindədir. "Cəmilə" povestində azad qadın xarakterləri mənəvi inkişafa can atmaqla, həm də müəyyən mənada patriarxal düşüncədən kənarlaşmağa səy göstərib. Əgər əvvəllərdə mövcud olan feodal patriarxal ənənələr qadının ərə və qaynanaya şəksiz itaətini nəzərdə tuturdusa, Cəmilə böyüklərə hörmət edib, onlara qulaq asmağı düşünsə də, həm də öz fikrini ortaya qoymaqdan çəkinmirdi.

Ç.Aytmatovun yazıçı kimi bacarığı ondadır ki, o, qadın azadlığını, onun sosial həyata isnişməsini hər şeydən öncə əsərlərinin süjetində və baş verən hadisələrdə açmağa çalışır. Digər bir tərəfdən Aytmatovun novatorluğu həm də onda özünü nümayiş etdirir ki, o, konfliktin mahiyyətini şüurun lap dərinliklərində oturda bilir [1, s.177]. Müəllifin qarşıya qoyduğu başlıca məqsəd qadının mənəvi azadlığını açmaqla, onun baxışlarının xalq həyatı ilə əlaqədə göstərməkdən ibarətdir. Cəmilənin yaşadığı mühitdəki insanlar yazılmamış ailə qanunları və davranışları ilə idarə olunur. Buna görə də belə mühitdə onun yaşaması, heç şübhəsiz ki, cansıxıcıdır. Buna görə də o, bu mühitdən qopmaq istəyir. Bu, həm də Cəmilənin keçmişdən ayrılmasının, qopmasının davamı kimi qəbul edilməlidir. Cəmilə lap əvvəldən sevginin nə olduğunu bilmir. Onun ərə getməsini də hərə bir cür izah edir (bəziləri onu Sadığın qaçırdığını, bəziləri sevib ərə getdiyini söyləyir). Müəllifin özü isə bu barədə heç nə bilmir. Bircə onu bilir ki, cəmi dörd ay bir yerdə yaşamışdılar ki, Sadığı müharibəyə aparırlar. Yuxarıda Seydədən danışdıqda qeyd etmişdik ki, Seydə İsmayılı sevirdi. Lakin İsmayılın bir sıra yaramaz keyfiyyətlərini gördükdən sonra, Seydə ona qarşı çıxır, onu görməyə gözü olmur. Çünki İsmayılda baş verən mənəvi aşınmalar onu Seydənin gözündən salır. Cəmilə isə tamamilə başqa cürdür. Onda Daniyara sevgi oyanır. Lakin bu da var ki, Cəmilə sosialist quruluşu şəraitində olan qadınlardandır [4, s.11].

Bəlkə Cəmilə Sadığa öz sevgisinə görə ərə gedib. Buna görə Cəmilənin açıq-saçıqlığı, öz fikirlərini demək istəyi onun qayınanası tərəfindən Cəmilənin gənc olması ilə əlaqələndirilirdi. Ümumiyyətlə, söyləməliyik ki, Ç.Aytmatov Cəmilənin sanki sərbəstlik üçün doğulduğunu göstərmək istəmişdi. Buna görə də o, kor-koranə itaət etməyi də qəbul etmirdi. O, o qədər sərbəst idi ki, bəzən heç kimə, heç nəyə baxmadan nəğmə oxuyurdu, zümzümə edirdi. Onun belə cəhəti ərinin valideynlərini qıcıqlandırırdı. Sadığın Cəmiləyə sevgisi də özünəməxsus idi. O, cəbhədən yazdığı məktublarında hamıya salam göndərdikdən sonra ən sonda xala-xətrin qalmasın deyə Cəmiləni qeyd edirdi. Cəmilə sevgini özünəməxsus şəkildə dərk edirdi. Axı Sadıqdan gələn məktublarda o, özünə qarşı heç bir nəvaziş hiss etməmişdi. Bu məktublarda ona diqqət olmadığından o, sanki başqa xoşbəxtliyin axtarışına çıxmaq haqqında düşünürdü. Elə bax buna görə də Cəmilə Daniyara qoşulub getməyə üstünlük verir. Daniyar da öz növbəsində Cəmilə üçün ideal kişi, sevgi və xoşbəxtlik mücəssəməsinə çevrilir.

Təhlillərimizi "Ana tarla" povesti üzərində davam etdirək. Bu əsərdə Tolqanay obrazı da tipikliyi ilə fərqlənir. Uzun bir ömür yaşamış bu qadının həyatında çoxlu sevincli günlər də, acılı xatirələr də olmuşdur. Tolqanayın üç oğlu və əri müharibədən qayıtmamışdı. O, bütün mehrini, bütün düşüncəsini tarlaya bağlamışdı. Müəllif əsəri elə qurub ki, torpağın özü də burada ana kimi assosiasiya olunmaqdadır. Fərq isə yalnız ondadır ki, torpağın oğulları və itkiləri Tolqanayınkından çoxdur.

Əsərin sonunda Tolqanay təbiətə, torpağa onun həyatı barədə insanlara danışmasını xahiş edir. Bu zaman torpaq ona cavab verir: "Yox Tolqanay, sən özün de. Sən – İnsansan. Sən hamıdan üstünsən, sən hamıdan müdriksən, sən – İnsansan! Sən de!" – deyir. Əsərdə qadın obrazının Yerlə, Torpaqla assosiasiya olunması yetərincə inandırıcı detallarla təsvirini tapır.

Ç.Aytmatovun əsərlərində yer almış qadın obrazlarından hər biri haqqında daha geniş və əhatəli danışmaq olar. Lakin qeyd etdiyimiz cəhətlər də, bu yazıçının qadın obrazlarının yetərincə fərqli və fərdi xüsusiyyətlərini göz önünə gətirməkdədir. Bu obrazlardan hər birində Ç.Aytmatov qırğız qadınının etnik-milli psixologiyasını onların yaşadıqları dövrün kolliziyaları kontekstində uğurlu şəkildə ortaya qoyduğu daha maraqlı şəkildə əks olunur.

## ƏDƏBİYYAT

1. Шошин В.А. Литература народов СССР. М., Просвещение, 1977.
2. Левченко В. Чингиз Айтматов. Проблемы поэзии, жанра, стиля. М., 1983.
3. Глинкин П.Е. Чингиз Айтматов. Л., 1968.
4. Потапов И. Свет человечности: Ч.Айтматов. Собр.соч. В 3-х т., Т.1, М., 1982.

**Nizami Taghisoy**

## CHINGIZ AITMATOV'S IMAGE IN THE PRISM OF TRADITION AND INNOVATION

## SUMMARY

The article studies the characteristic features of women's characters in the stories of famous Kyrgyz writer Ch.Aytmatov. The national-moral qualities of these literary characters, chosen by national character, such as Seyda, Jamila, Totoy, Tolkanai, are studied in the context of other characters. The traits of tradition and innovation are examined.

**Низами Тагисой**

## ЖЕНСКИЕ ОБРАЗЫ ЧИНГИЗА АЙТМАТОВА В ПРИЗМЕ ТРАДИЦИЙ И НОВАТОРСТВА

## РЕЗЮМЕ

В статье объектом анализа становятся повести Ч.Айтматова, где широко представлены женские образы и их специфические особенности. Изучаются такие женские образы, как Сейде, Джамиля, Тотай и Толгонай, отличающиеся своими национальными характерами. Выясняется отношение образов к традициям, а также новаторский подход к проблематике.